# "İcbari tibbi sığorta" mövzusunda təlim keçirilib




15 may 2024-cü il tarixdə Qəbələ rayonunda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin və Qəbələ Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi şəxsin təşkilatçılığı ilə ""İcbari Tibbi Sığorta" mövzusunda təlim keçirilib. Qəbələ şəhər ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrinin kollektivlrinin iştirak etdiyi tədbirin keçirilməsində məqsəd əhalinin icbari tibbi sığortadan istifadə qaydaları üzrə maarifləndirilməsi olub. Tədbiri Qəbələ Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi şəxsin Terapevtik xidmətlər üzrə direktor müavini açaraq tibb sahəsində dövlət başçısının rəhbərliyi altında uğurlu islahatların aparıldığını, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı mühüm addımlar



atıldığını bildirmiş, yeni istifadəyə verilmiş rayon xəstəxanasının müasir texnoloji nailiyyətlərə əsaslanan tibbi avadanlıqlarla təchiz olunduğunu, icbari tibbi sığortanın əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədilə tətbiq olunduğunu diqqətə çatdırmışdır. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxışında qonaqları salamlayaraq belə tədbirlərin əhəmiyyətindən danışmış və bu cür tədbirlərin davam edəcəyini bildirmişdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Şəki Regional Filialının rəhbəri Laçın İbrahimxəlilov icbari tibbi sığorta haqqında, icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə qaydası, icbari tibbi sığorta haqları, icbari tibbi sığortanın xidmətlər zərfində təminat verilən tibbi xidmətlər, TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri, Agentliyin müqavilə bağladığı özəl tibb müəssisələri, özəl tibb müəssisələrində icbari tibbi sığortadan istifadə qaydası haqqında ətraflı məlumat vermişdir. Sonda vətəndaşları maraqlandıran suallar cavablandırılmışdır.

# Tarixi Qələbə

9 may - Faşizm Üzərində Qələbə Günü təntənəli surətdə qeyd olunur. Bu qələbə heç də asan başa gəlməyib. Yüzlərlə, minlərlə həmvətənlərimiz bu qələbə naminə canlarından keçiblər. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq və həm də doğma Azərbaycan torpağını qoruyublar.

Müharibədə Azərbaycanın 600 mindən çox oğul və qızının amansız düşmənlə döyüşlərdə göstərdikləri misilsiz şücaət və igidlik, arxa cəbhədə çalışanların isə əmək rəşadəti dillər əzbəridir.

170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 130 nəfər həmyerlimizin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna əyani sübutdur. Əgər o vaxt Azərbaycan nefti cəbhəyə göndərilməsəydi, bu müharibə qələbə ilə bitməzdi.

1941-ci ildə başlanan müharibənin ilk illərində faşist Almaniyası işğal etdiyi Avropa ölkələrinin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirmişdi. Lakin "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı bütün sovet xalqlarını birləşdirdi. Bununla da düşmənin hücumları, nəinki dayandırıldı, faşistlər Moskva, Stalinqrad, Kursk və başqa döyüşlərdə ən ağır və sarsıdıcı məğlubiyyətə uğradı, 1945-ci ildə isə tamamilə məğlub edildi.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Rənglərin sehrli dünyası

Qəbələ Dövlət Rəsm Qalereyasının dəstəyi ilə Azərbaycan Rəssamlar İttifaqının üzvü Gülbəniz Gözəlovanın əl işlərindən ibarət "Bacarıqlı əllər" adlı fərdi sərgisi keçirilib.

Gülbəniz Rafiq qızı Gözəlova 20 iyun 1977-ci ildə Bakıda anadan olub. Təhsilini boya başa çatdığı doğma şəhərində alıb. Dekorativ tətbiqi sənətlə 30 ilə yaxındır ki, məşquldur. 2017-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilib. İlk fərdi sərgisi 2017-ci ildə iyun ayının 10-dan 12-dək Bakı şəhərində Azərkitab mərkəzində keçirilib. Bir çox sərgilərdə fəal iştirakına görə fəxri fərman, diplom və sertifikatlarla təltif olunub. Dekorativ tətbiqi sənət üzrə dərnək rəhbəri kimi çalışır. 200-dən çox tələbəyə bu sənətin incəliklərini öyrədib. Gülbəniz xanım dekorativ tətbiqi sənətin müxtəlif janrlarına müraciət etsə də əsərlərinin əsas hissəsini "Sanama" tikmə növü təşkil edir.

29 avqust 2017-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilən Gülbəniz xanımın əl işləri müxtəlif vaxtlarda - (9 may 2017, "Gül Bayramı" Bakı), (10-12 iyun 2017, Azərkitab mərkəzi, Bakı), (25 iyun 2017," Mürəbbə festivalı", Qəbələ), (16 dekabr, 2017, "Qızıl əllər" sərgisi, (Tufandağ otel Qəbələ) və digər sərgilərdə nümayiş olunub.

**(Ardı 8-ci səhifədə).**

# Müstəqilliyimiz daimidir

10 may 1923-cü ildə dünyaya gələn dahi insan Heydər Əliyev hələ gənc yaşlarından fitri istedadı, cəsarəti, milli-mənəvi dəyərlərə bağlılığı ilə həmyaşıdlarından fərqlənirdi. Ona görə də Heydər Əliyev 1944-cü ildə bir çox insanların arzusunda olduğu, lakin hər insanın müvəffəq ola bilmədiyi uğura imza atmaqla dövlət təhlükəsizliyi orqanlarına qulluğa qəbul olunur və ömrünün 25 ilini həmin orqanda ləyaqətlə xidmət keçir. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəlir və elə həmin ildə də ona general-mayor rütbəsi verilir. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə uzun onilliklərdən sonra ilk dəfə olaraq azərbaycanlının təyin edilməsi, bu orqanın tarixində bir ilk idi. 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi və digər maneələrə sinə gərərək Azərbaycan xalqının özünüdərki üçün bütün mümkün tədbirləri həyata keçirməyə başladı. O vaxtlar ölkəmiz sənaye potensialı zəif, geridə qalmış kənd təsərrüfatı respublikası kimi tanınırdı. Məhz Ulu Öndərin tükənməz enerjisi və uzaqgörənliyi sayəsində Azərbaycan Sovet İttifaqında uzun illər birincilər sırasına yüksəldi. 1982-ci ildə Heydər Əliyevin ittifaq rəhbərliyinin ən yüksək vəzifələrindən birinə - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi bəzi ermənipərəst qüvvələrin qısqanclığına səbəb oldu. Yeni vəzifənin öhdəsindən xüsusi peşəkarlıqla gələn Heydər Əliyevin uğurları yüksək eşalonda əyləşənləri də narahat edirdi. Bu səbəblərdən 1987-ci ilin oktyabrında Ulu Öndər vəzifədən istefa verməyə məcbur oldu. Bundan sonra Azərbaycan xalqının məşəqqətli günləri başladı. Əvvəlcə Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək ideyası meydana çıxdı ki, bu da xalqımızın soyqırımı ilə müşayət olunan torpaqlarımızın işğal edilməsi ilə nəticələndi. Bir müddət sonra isə "Qanlı yanvar" qırğını baş verdi. Sözsüz ki, o zaman Heydər Əliyev hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi.

Heydər Əliyev demişdir: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir." Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması və möhkəmləndirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra qısa müddət ərzində daxildə baş qaldırmış destabilizasiya ünsürləri aradan götürüldü, ictimai-siyasi sabitlik bərpa olundu, ölkənin bütün maddi-siyasi resursları və potensialı Ermənistanın işğalçı qüvvələrinə qarşı müqavimətin təşkilinə yönəldi. 1993-cü il noyabrın 2-də Azərbaycan dövlət televiziyası və radiosu ilə xalqa müraciət edən Heydər Əliyev ictimai ruh düşkünlüyünün qarşısını aldı, hamını bir nəfər kimi düşmənə qarşı mübarizədə fəal iştirak etməyə çağırdı. Ulu Öndər müraciətində təkcə hərbi uğursuzluqların səbəblərini deyil, həm də vəziyyətdən çıxış yollarını göstərdi. Bu müraciət ictimaiyyət tərəfindən dəstəkləndi və vətəndaşlar müdafiə prosesinə fəal şəkildə qoşuldular. Ordudan yayınma hallarının və cəbhədə geriləmələrin qarşısı alındı. Hərbi uğursuzluqlarla üzləşdiyini və daha irəliləyə bilmədiyini görən Ermənistan rəhbərliyi 1994-cü ilin 12 mayında danışıqlar masası arxasında oturmağa və cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan Bişkek protokolunu imzalamağa məcbur oldu. Azərbaycan daxilində yaranan nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 20 sentyabr 1994-cü ildə " Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlandı ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bunun nəticəsində Azərbaycan ilk dəfə olaraq dünya qarşısında sərvətlərinin mütləq sahibi olduğunu sübut etdi. Qazanılan və əldə olunan iqtisadi dirçəliş nəticəsində başqa sahələrdə olduğu kimi ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın müstəqilliyinin qarantı olan güclü, qüdrətli Silahlı Qüvvələr yaradıldı. "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm" - Heydər Əliyev hakimiyyətə bu sözlərlə qayıtmışdı və ömrünün sonunadək bu sözlərə sadiq qaldı. Azərbaycan xalqını rəzalətdən və qardaş qırğınından, Azərbaycan dövlətini iflas və parçalanmaq təhlükəsindən xilas edən Heydər Əliyev 10 il sonra bizə möhkəm özüllü, istiqrarlı, sabit inkişafı təmin edilmiş bir dövlət qoyub getdi və ölkənin gələcək idarəçiliyini siyasi varisinə - özü qədər inandığı gənc liderə, İlham Əliyevə təhvil verdi.

May ayının əlamətdar günlərindən biri də 1941-1945-ci il Böyük Vətən Müharibəsində alman faşizmi üzərində 9 may Qələbə günüdür. Hələ sovetlər burliyi dönəmində dövlət rəsmiləri dəfələrlə qeyd etmişdilər ki, SSRİ-nin neft balansında Azərbaycanın iştirakı olmasaydı Sovetlər İttifaqının faşizm üzərində qələbəsi sual altında qala bilərdi. Çünki o vaxt Sovet İttifaqında istehsal olunan neftin 70-75 faizi, benzinin 85-90 faizi, sürtgü yağlarının 90 faizi Azərbaycandan gəlirdi. Respublikamızdan müharibəyə yollanan 600 min əsgər və zabitdən yarıdan çoxu geri qayıtmamışdı. 27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan möhtərəm İlham Əliyevin şəxsən başçılığı ilə Azərbaycan Ordusu Qarabağı azad etmə əməliyyatına başladı. Azərbaycan əsgər və zabitləri Ali Baş Komandanın rəhbərliyi ilə 21-ci əsrdə müharibənin aparılmasında əldə etdikləri uğurlarla dünya hərb tarixinə adlarını qızıl hərflərlə yazdılar.44 gün davam edən Vətən Müharibəsi zamanı Azərbaycan Respublikasının Dövlət Sərhədləri bərpa edildi və noyabr ayının 9-dan 10-na keçən gecə işğalçı Ermənistan ordusunun tam kapitulyasiyası ilə nəticələndi. 2023-cü il sentyabrın 19-20-də aparılmış antiterror əməliyyatı nəticəsində torpaqlarımızda qalmış erməni tör-töküntüləri təmizləndi və tarixi ədalət bərpa edildi.

Ümummilli Liderimiz Heydər Əliyev müstəqilliyimizdən həmişə böyük inamla danışaraq deyirdi: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir". Müstəqilliyimizin əbədi, daimi və dönməz olması üçün isə, təbiidir ki, hər bir vətəndaş səylə çalışmalı, üzərinə düşən vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirməlidir.

**Araz AĞAYEV,**
**Kiçik Pirəli kənd İƏD**
**üzrə nümayəndə.**